# 30 illik həsrətə son... Qarabağ Azərbaycandır!

Düz 30 il idi məcburi köçkünlər doğma yurd həsrəti ilə yaşayırdılar. İşğalda olan torpaqların geri qaytarılması, qaçqınların doğma ocaqlarına qayıtması üçün dəfələrlə danışıqlar aparıldı. Lakin bütün bunlar nəticəsiz qaldı. Erməni silahlı qüvvələri təxribat törətməkdə davam edir, mülki əhalinin yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tuturdular. Bu ilin sentyabrın 27-də Erməni Silahlı qüvvələri tərəfindən genişmiqyaslı təxribat törətdiklərindən buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirməyə məcbur oldu.

30 ilə yaxındır danışıqlar yolu ilə həllinə çalışdığımız haqq, ədalət mübarizəmiz 44 gündə hərb yolu ilə həll edildi. Budur şanlı, qürurlu Azərbaycan Ordusu. Budur haqq mübarizəsi, Vətən müharibəsi. Bu müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələndi və qızıl hərflərlə tarixə yazıldı. Bu qısa zaman kəsiyində 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın yaşayış məntəqəsi, xeyli sayda strateji yüksəkliklər azad olundu. Düşmənin yüzlərlə texnikası məhv edildi, bəzisi hərbi qənimət kimi ələ keçirildi. Bununla bərabər, xeyli sayda canlı qüvvəsi məhv edildi.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiya imzalamağa məcbur etdi.

Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar göz qabağındadır. Ermənistanla müqayisədə isə Azərbaycanda, Ali Baş Komandan İlham Əliyevin fəxrlə bəyannaməyə imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu açıq-aydın şəkildə nümayiş etdirir. Hazırda Şuşa şəhəri də daxil olmaqla, Dağlıq Qarabağın böyük bir hissəsi Azərbaycan Ordusunun nəzarətindədir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçın qan tökülmədən geri qaytarılır. Şuşa şəhərinin, Xocavəndin, o cümlədən Hadrut qəsəbəsinin, Kəlbəcərin, Ağdamın, Laçının geri qaytarılması Dağlıq Qarabağa gedən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin əlində olması deməkdir.

Məcburi köçkünlərin geri qayıtması ilə demoqrafik balans tamamilə Azərbaycanın xeyrinə dəyişəcək. Ermənistanın öz müqəddəratını təyinetmə ilə əlaqədar bütün iddiaları qüvvədən düşür, hər şey yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə əsasən həll edilir.

Danılmaz faktdır ki, Şuşaya nəzarət edən avtomatik olaraq Qarabağa da nəzarət edir. Şuşa şəhəri isə Azərbaycanın əlindədir. Kəlbəcər, Ağdam və Laçının boşaldılması və Ermənistanla sərhəd bölgələrinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi ilə faktiki olaraq Ermənistanla Dağlıq Qarabağı yalnız 5 kilometrlik kiçik Laçın dəhlizi əlaqələndirəcək.

Rusiya sülhməramlılarının nəzarəti altında olacaq Laçın dəhlizində Ermənistan hərbçiləri olmayacaq və dəhlizin təhlükəsizliyi Azərbaycan tərəfindən təmin olunacaq.

Prezident status-kvonu dəyişdi və bu gün münaqişənin həlli şərtlərini Azərbaycan diqtə edir.

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur.

Birgə bəyanat sentyabrın 27-dən Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində yaranmış reallığa uyğun hazırlanıb və Ermənistanın kapitulyasiya aktı hesab olunur. Bəyanat tam olaraq, Azərbaycanın maraqlarına uyğun hazırlanıb və imzalanıb.

Azərbaycan Prezidenti bundan əvvəl də bəyan etmişdi ki, Ermənistan Ağdam, Kəlbəcər və Laçından öz qoşunlarını çıxaracağı təqdirdə, Azərbaycan hərbi əməliyyatları dayandırmağa hazırdır.

Azərbaycan azad etdiyi bütün mövqeləri saxlayır.

Belə ki, Azərbaycanın maraqları çərçivəsində imzalanan üçtərəfli bəyanata əsasən, noyabrın 15-i Kəlbəcər, noyabrın 20-si Ağdam, dekabrın 1-i isə Laçın işğalçılardan təmizlənərək Azərbaycan Ordusunun nəzarətinə veriləcək. Ermənistan bu rayonlarda olan qoşunlarını Ermənistan istiqamətindən çıxarır.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə regiona gələn Rusiyanın sülhməramlılarının kontingenti olduqca məhdud saydadır. İlk 5 ilin tamamına 6 ay qalmış tərəflərin hansısa biri sülhməramlıların fəaliyyətinə xitam verilməsini tələb edərsə, onlar ərazini tərk edəcəklər.

Rusiya sülhməramlıların fəaliyyət coğrafiyası və fəaliyyət qaydaları Azərbaycanla razılaşdırılaraq müəyyən edilib. Sülhməramlıların gəlişi Ermənistan hərbi birləşmələrinin çıxarılması ilə paralel şəkildə həyata keçirilir ki, bu da Ermənistan hərbçilərinin regionda qalmasını istisna edir.

Bu proses çərçivəsində Naxçıvan da blokadadan azad olundu. Hələ 1990-cı illərdə münaqişə başlayandan sonra Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında quru yolla rabitənin olmaması böyük çətinliklər yaradırdı. İlk dəfə olaraq Azərbaycanın əsas hissəsinin Ermənistan ərazisindən qısa yolla Naxçıvanla əlaqəsi yaradılır. Bu yolun təhlükəsizliyi Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) Sərhəd Xidməti tərəfindən təmin olunacaq. Bu da onu göstərir ki, Ermənistan bütün mənalarda müstəqil deyil. Hətta işğaldan azad olunan Azərbaycan ərazilərindən keçəcək dəhlizin təhlükəsizliyini Azərbaycan təmin etdiyi halda, Ermənistan öz ərazisində belə nəyəsə təminat vermək iqtidarına malik deyil.

Bütün bunların fonunda daha vacib məqamlardan biri isə münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılmasıdır. Türkiyə mərkəzdə təmsil olunur. Türkiyə hərbçilərinin prosesdə iştirakı ona dəlalət edir ki, Azərbaycanın maraqlarının əleyhinə hər hansı addımın atılmasının qarşısı alınacaq.

Azərbaycan Türkiyəni də fəal şəkildə münaqişənin tənzimlənməsi işinə cəlb edə bildi. Türkiyə hər zaman olduğu kimi Qarabağ məsələsində də Azərbaycanın yanındadır və indi real olaraq bölgənin təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrildi;

Razılaşmaya əsasən, daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Bu da o deməkdir ki, azərbaycanlı məcburi köçkünlər Dağlıq Qarabağ ərazisində doğma yurdlarına qayıdacaqlar.

Bəli, 30 illik bir həsrətə son qoyuldu. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında qızıl hərflərlə yeni tarix yazdı! Bu tarixin bir adı var. Qarabağ Azərbaycandır!

### 22 noyabr-Ədliyyə İşçiləri Günüdür

# Tarixi ədalət bərpa olunur



*Muradağa Qasımov, Salyan Rayon Məhkəməsinin sədri vəzifəsini icra edən.*

Bu günlər Azərbaycan xalqı bayram təntənələrini yaşayır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulmuş, 30 il işğalda olan torpaqlarımız müzəffər Ordumuzun igidliyi nəticəsində azad edilmişdir. Hüquqi dildə desək, tarixi ədalət bərpa olunmuşdur. Bu ədalətə Azərbaycan xalqı özünün yenilməz Ordusu, igid Sərkərdəsi, Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə nail olmuşdur.

Azərbaycan öz torpaqlarının qaytarılmasının, beynəlxalq aləm tərəfindən tanınan sərhədləri çərçivəsində, BMT-nin qəbul etdiyi qətnamələrə istinadən icrasını təmin etmişdir. Hazırda ölkəmizin maddi və mənəvi sərvətlərinə dəyən ziyanların, işğalçılar tərəfindən dinc əhaliyə qarşı edilən cinayətlərin tədqiqinə başlanılmışdır. Burada da tarixi ədalət bərpa olunacaqdır.

Xalqımız kimi, hüquq-mühafizə strukturlarının kollektivlərinin üzvləri Vətən müharibəsi qələbəsinin sevincini yaşamaqdadır. Mən də öz kollektivimiz adından xalqımızı, Ali Baş Komandan İlham Əliyevi, əsgər və zabitlərimizi təbrik edirəm. Tarixi ədalətin bərpa olunmasında canlarından keçərək şəhid olmuş əsgər və zabitlərimizin ruhu qarşısında baş əyirik. İnanırıq ki, onların uğrunda şəhid olduqları Azərbaycan əbədi müstəqilliyinə qovuşmuşdur.

Yeni tarixi şəraitdə işğaldan azad edilmiş ərazilərimizdə hüquq işinin təşkili də çox mühüm dövlət siyasətlərindən biri olacaqdır. Hüquqi dövlət quruculuğunda tarixi nailiyyətləri olan Azərbaycan bu sahədə zəngin təcrübəyə malikdir. Xatırlamaq yerinə düşər ki, Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə noyabrın 22-si ədliyyə işçilərinin peşə bayramı günü elan olunaraq hər il qeyd edilir.

Çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başlanır. Ölkədə hüquq sisteminin inkişafına mühüm əhəmiyyət verilərək elə həmin tarixdə Ədliyyə Nazirliyi təsis olunmuş, Xəlil bəy Xasməmmədov Cümhuriyyətin Nazirlər Şurasında ilk ədliyyə naziri təyin edilmişdir.

Qısa müddət ərzində dağınıq və pərakəndə halda olan ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti bərpa edilmiş, bu sahədə işin yaxşılaşdırılması məqsədilə bir sıra vacib qərarlar qəbul olunmuşdur. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmiş, Bakı və Gəncə dairə məhkəmələrinin fəaliyyəti təkmilləşdirilmiş, hərbi məhkəmə təşkil olunmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişindən sonra ölkə həyatında canlanma müşahidə olunmuş, bütün sahələrdə olduğu kimi, ədliyyə sistemində də yeni inkişaf dövrü başlanmışdır. Həmin illərdə ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı mühüm qərarlar qəbul olunmuş, ümumiyyətlə, Azərbaycan ədliyyəsinin gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Əsas qanunda təsbit olunmuş bir sıra mühüm müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə etibarlı təminat yaratmış, bu prinsip önə çəkilməklə sonrakı mərhələdə yeni qanunvericilik aktları, o cümlədən Avropa ölkələrində hamılıqla qəbul edilmiş standart və normalara uyğunluq baxımından cinayət, cinayət-prosessual, mülki və mülki-prosessual məcəllələrin, habelə məhkəmə-hüquqi sistemi ilə bağlı yeni qanunlar qəbul olunmuşdur.

Dahi öndərin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" 1 dekabr 1998-ci il tarixli Fərmanı Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin həllinə güclü təkan vermişdir.

Beləliklə, məhkəmə-hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək ölkədə yeni üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək əzmlə, yeni dövrün gerçəkliklərinə uyğun davam və inkişaf etdirilir.

2004-cü ildən dövlət başçısının ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı çoxsaylı fərman və sərəncamlarına uyğun olaraq məhkəmə-hüquq sistemində köklü dəyişikliklər baş vermiş, yeni təsisatlar - Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi yaradılmış, regional, o cümlədən apellyasiya, ağır cinayətlər, inzibati-iqtisadi məhkəmələr təsis edilmiş, hakimlərin sayı xeyli artırılmış, onların Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçim qaydası təsbit olunmuşdur. Bunun nəticəsidir ki, hazırda respublikada ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir.

Ölkə Prezidenti cənab İlham Əliyev 2006-cı ildə Ali Məhkəmənin yeni inzibati binasının təməlinin qoyulması mərasimində demişdir: "Azərbaycanda məhkəmə sisteminin təkmilləşdirilməsi işi sürətlə gedir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə məhkəmə-hüquq islahatları aparılmağa başlanmışdır. Bu işlər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır və bu gün uğurla davam etdirilir. Çünki məhkəmə-hüquq sisteminin təkmilləşməsi hər bir ölkənin inkişafında çox böyük əhəmiyyət kəsb edir. Hətta inkişaf etmiş ölkələrdə də bu proses daim gedir. Yəni, bu prosesin əvvəli var, amma sonu yoxdur".

Məhkəmə islahatlarının yeni inkişaf mərhələsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması, müasir İKT-lərin geniş tətbiqi, dövlət büdcəsi hesabına və Dünya Bankı ilə əməkdaşlıqda yüksək texnologiyalarla təchiz olunmuş müasir məhkəmə infrastrukturunun yaradılması, paytaxtda və bölgələrdə yeni məhkəmə binalarının və komplekslərinin tikilib istifadəyə verilməsi məhkəmələrə müraciət imkanlarını artırmaqla ədalət mühakiməsinin əlçatanlığının asanlaşdırılmasına xidmət edir.

Azərbaycan ədliyyəsinin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da ölkəmizin hərtərəfli tərəqqisinə uyğun olaraq uğurla inkişaf edəcəyi hər birimizdə qəti əminlik yaradır. Fürsətdən istifadə edərək qarşıdan gələn bayram münasibətilə bütün həmkarlarımızı təbrik edir, ədliyyə və məhkəmə sisteminin davamlı inkişafı naminə müvəffəqiyyətlər arzulayıram.

### 20 noyabr Ana dili Günüdür

# Ana dili milli sərvətimizdir

Ana dili milli-mənəvi dəyərlərimiz arasında xüsusi yer tutur. Ana dili dövlətin müstəqilliyinin, onun siyasi mövcudluğunun göstəricisi olmaq etibarı ilə mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, hazırda dünyanın 260 ölkəsində 7,5 milyarddan çox insan yaşayır. Onlar ünsiyyət vasitəsi kimi, 7 minə yaxın dildən istifadə edirlər. 40 ən çox yayılmış dil dünya əhalisinin üçdə iki hissəsini əhatə edir. Dünya dillərindən yalnız 95 - i dövlət dili statusuna malikdir. Bəzi dillər bir neçə ölkənin rəsmi dili kimi qəbul edilib. İngilis dili 56, fransız dili 29, ərəb dili 24, ispan dili 20, portagiz dili 8, alman dili 6, italyan və rus dilləri 4, holland və serb dilləri 3 ölkənin dövlət dili statusuna malikdir.

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Bu dil dövlət dili kimi ölkəmizin siyasi, iqtisadi, ictimai, elmi və mədəni həyatının bütün sahələrində işlədilir. Ana dilimizin dövlət dili statusu qazanmasında 1978-ci il Konstitusiyasına bu barədə maddənin salınmasının çox böyük əhəmiyyəti oldu.

Ulu Öndər milli dil məsələsinə xüsusi həssaslıqla yanaşırdı. Ümummilli lider yüksək natiqlik məharəti ilə bu dilin zənginliyini bütün dünyaya nümayiş etdirirdi. Bu gün Heydər Əliyevin milli dövlətçilik irsini hər sahədə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev milli dil məsələsinə xüsusi önəm verir. Ölkə başçımız tərəfindən imzalanan müxtəlif sərəncamlar, irəli sürülən tezislər milli inkişafımızın inkişafına təkan verən tarixi addımlardır. Bir neçə dildə səlis danışan, eyni zamanda, ana dilində də yüksək natiqlik məharəti ilə onun zəngin ifadə imkanlarını nümayiş etdirən ölkə başçımız İlham Əliyevin göstərdiyi nümunə təqdirəlayiqdir.

Silahlı Qüvvələrimizin Ali Baş Komandanının rəhbərliyi altında ərazi bütövlüyümüzün, sərhədlərimizin toxunulmazlığı naminə haqq, ədalət savaşından müzəffər Ordumuzun qalib çıxması bütün dünya azərbaycanlılarının sözlə ifadəsi çətin olan sevincinə, fərəhinə səbəb olmuşdur. Şanlı Ordumuz torpaqlarımızı azad etməklə, həm də dünyada mövcudluğumuzun, bir millət olaraq var olmağımızın keşiyində dayanmış oldu. Var olsun milli qürurumuzu, milli mənliyimizi qoruyan rəşadətli Azərbaycan əsgəri!

## Vaqif Ağaşir oğlu Hüseynov (1952-2020)



Salyan rayon ictimaiyyətinə ağır itki üz vermişdir. Salyan şəhər bələdiyyəsinin sədri Vaqif Ağaşir oğlu Hüseynov 68 yaşında vəfat etmişdir.

Vaqif Hüseynov 1952-ci il martın 9-da zəhmətkeş ailəsində anadan olmuşdur. 1968-ci ildə Salyan şəhər 2 saylı orta məktəbin onuncu sinfini bitirən V.Hüseynov inşaatçı-mühəndis olmaq arzusu ilə həmin il Azərbaycan Politexnik İnstitutunun (indiki Memarlıq və İnşaat Mühəndisləri Universiteti) inşaat fakültəsinə daxil olmuşdur. 1973-cü ildə institutu inşaatçı mühəndis ixtisası üzrə bitirən V.Hüseynov 1974-cü ilin avqust ayına kimi Əli Bayramlı (indiki Şirvan) şəhər tikinti idarəsində xarrat işləmişdir. 1977-ci ilin fevralına qədər 25 saylı Səyyar Mexanikləşdirilmiş Dəstədə iş icraçısı olmuşdur. Burada iki il işlədikdən sonra Salyan Təmir Tikinti İdarəsində baş mühəndis kimi fəaliyyət göstərmişdir. Bir il, yəni 1980-ci ildə Salyan Kolxozlararası Tikinti İdarəsində baş mühəndis kimi çalışdıqdan sonra inşaatçı-mühəndis kimi təcrübəsini və fəaliyyətini artıran Vaqif Hüseynov 1982-ci ildə Salyan İnşaat Materialları və Konstruksiyaları İstehsalat Kombinatının direktoru vəzifəsinə irəli çəkilmişdir. Yüksək işgüzarlığı, təşkilatçılıq bacarığı ilə seçilən direktor burada həm də kollektivin mənafeyini hər şeydən uca tutması, zəhmət çəkən insanların əməyinin düzgün qiymətləndirilməsi və işçilərə qarşı xüsusi qayğıkeşliyi ilə özünə dərin hörmət və ehtiram qazandırmışdır.

1982-ci ilin oktyabr ayından 1985-ci ilin iyul ayına kimi V.Hüseynov Neftçala Pambıqtəmizləmə Zavodunda tikinti şöbəsinin rəisi vəzifəsində işləmişdir. Bir il Salyan 12 saylı Yol-Tikinti idarəsində baş mühəndis kimi çalışdıqdan sonra onu həmin idarəyə rəis təyin etmişlər. 1986-cı ildən 16 il bu vəzifədə çalışan V.Hüseynov özünün geniş və potensial imkanlara malik olduğunu bir daha nümayiş etdirmiş, səriştəli, təvazökar və xeyirxah insan kimi rayon rəhbərliyinin, baş idarənin dərin ehtiramını qazanmışdır. İşgüzar və ziyalı bir insan kimi, işlədiyi bütün sahələrdə öz xarakterinə sadiq qalmışdır.

2002-ci ildə Salyan şəhər bələdiyyəsinə sədr seçilmişdir.

2006-cı ildən 2014-cü ilə kimi "Ağaşir" MMC-nin təsisçisi olan V.Hüseynov 2014-cü ildə keçirilən növbəti bələdiyyə seçkilərində yenidən Salyan şəhər bələdiyyəsinin sədri seçilmişdir. Salyan bələdiyyəsinə rəhbərlik etdiyi illərdə rayonumuzun tikinti-quruculuq işlərində, abadlaşmasında yaxından iştirak etmişdir. Belə ki, respublika bələdiyyələri sırasında ilk dəfə Salyanda “Bələdiyyə parkı” inşa edilərək şəhər sakinlərinin ixtiyarına verilmişdir.

1998-ci ildən V.Hüseynov YAP üzvü olmaqla dövlət və dövlətçiliyimizin möhkəmlənməsi sahəsində fəal iştirak etmişdir.

Bundan başqa Vaqif Hüseynov rayon ağsaqqallarından biri kimi, həmişə insanların xeyir və şərində iştirak etmiş, köməyi əsirgəməmişdir. Ümumiyyətlə, onun iş kabineti həmişə ehtiyacı olanlar üçün açıq olmuşdur. V.Hüseynov çalışdığı illər ərzində bir sıra təltiflərin müəllifidir. Lakin bütün bunlarla bərabər o, daha çox xalqın hörmət və izzətini qazanmışdır.

Vaqif Hüseynov rayon ağsaqqallarının yubileylərinin keçirilməsinin bilavasitə təşəbbüskarlarından biri idi. Ənənəvi günlərdə-Yeni il, Novruz və Qurban bayramı günlərində həm “Qələbə” qəzeti vasitəsilə şəhər sakinlərini təbrik edir, həm də aztəminatlı ailələrə bayram sovqatlarının hazırlanaraq çatdırılmasını təşkil edirdi.

V.Hüseynov ömrünün sonuna kimi bu vəzifədə çalışmışdır.

3 övlad atası idi.

Vaqif Hüseynovun unudulmaz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin.

*Salyan şəhər bələdiyyəsinin kollektivi.*

## Allah rəhmət eləsin

Avtandil Məlikov ailə üzvləri ilə birlikdə Salyan şəhər bələdiyyəsinin sədri

VAQİF HÜSEYNOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Mətləb, Əlixeybər Axundovlar və Hacı Rəşad Salyan bələdiyyəsinin sədri

VAQİF HÜSEYNOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Elmar Hacıyev ailə üzvləri ilə birlikdə Salyan şəhər bələdiyyəsinin sədri

VAQİF HÜSEYNOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Mülayim Hacıyeva ailə üzvləri ilə birlikdə Qadir və Gülşən Əzizovlara, əzizləri

ZÜLEYXA ANANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

4 saylı Yaşıllaşdırma MMC-nin kollektivi cəmiyyətin sədri Qadir Əzizova, anası

ZÜLEYXA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elşən Mənsimov ailə üzvləri ilə birlikdə 4 saylı Yaşıllaşdırma MMC-nin sədri Qadir Əzizova, anası

ZÜLEYXA XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan rayon “Qələbə” qəzetinin kollektivi Ələkbər Hüseynova, qardaşı

VAQİF HÜSEYNOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Salyan rayon “Qələbə” qəzetinin kollektivi 4 saylı Yaşıllaşdırma MMC-nin sədri Qadir Əzizova, anası

ZÜLEYXA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Rüstəm Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 340 Sifariş: 31-32
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus “BZ” mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab
№AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: T.B.Nəsirli